BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2013*

**47.01.45 Ədəbiyyatşünaslığın və ədəbiyyatın tədrisi**
**UOT 82. 0: 37.016; 82: 37. 016**

# EPİK ƏSƏRLƏRİN TƏDRİSİNDƏ HEKAYƏ JANRI

**A.T.ƏLİYEVA**
***aliyeva@mail.ru***

*Məqalə epik əsərlərin tədrisində hekayə janrına həsr olunmuşdur. Qeyd olunur ki, epik əsərlərin tədrisi zamanı hekayə mühüm rol oynayır. Orta məktəblərdə də hekayə janrı tədris olunur. Burada C.Məmmədquluzadənin, M.Cəlalın, S.Axundovun, A.Şaiqin yazdıqları hekayələr tədqiqata cəlb olunmuşdur.*

**Açar sözlər:** hekayə, janr, ədəbiyyat, epik, Mir Cəlal, Cəlil Məmmədquluzadə, bədii əsər

Epik növ bədii yaradıcılıqda ictimai varlığın, cəmiyyətin, müxtəlif hadisə və insan həyatının təhkiyə, nəql yolu ilə təsviridir. Epik növdə, başqa ədəbi növlərə nisbətən bədii inikasın əhatə dairəsi və hüdudları olduqca geniş və əhatəlidir. Bu məqalədə əsas mövzu obyektimiz epik əsərlərdir. Epik əsərdə yazıçı geniş həyat lövhələri yaradır, insan xarakterini hərtərəfli təsvir edir və ümumiləşdirir. Bu əsərlərdə təhkiyə vasitəsilə qələmə alınan hadisələrin mahiyyətinə nüfuz etmək, təsvir obyektini hərtərəfli göstərmək üçün yazıçının bədii imkanları geniş olur. Belə ki, o, müəyyən bir hadisəni, əsərdə iştirak edən obrazların başına gələn əhvalatları oxucuya çatdırmaq üçün bəzən nağıl, bəzən də şərh etmək yolu ilə daha ətraflı məlumat verir.

Əsəri təhlil edərkən qəhrəmanı səciyyələndirmək, əsərin bədii xüsusiyyətlərini açmaq, peyzaj və əşya təsvirini, əsərin quruluşunu və məfkurəvi istiqamətini ayrı-ayrılıqda təhlil etmək azdır. Bunların arasında əlaqə yaratmaq, hamısını əsərin ümumi təhlilinin ixtiyarına vermək lazımdır. Buna görə də, təhlilin bütün elementləri, nəticə etibarı ilə vahid bir xətt üzərində birləşdirilməli və əsrin əsas ideyasının qabarıq verilməsinə kömək etməlidir.

Epik janrda yazıçının bədii sözdən necə istifadə etməsini aydınlaşdırmaq lazım gəlir. Çünki bədii söz yazıçının təbliğ etdiyi ideyanı oxucuya və ya dinləyiciyə çatdıran əsas vasitədir. Əsil sənətkar o sənətkardır ki, sözdən, onun məna çalarlarından və bədii təsir gücündən bacarıqla istifadə edə bilir. Bu dediklərimizi daha yaxşı əsaslandırmaq üçün bədii sözün qüdrətindən böyük

ustalıqla istifadə etmiş, öz əsərlərində söz vasitəsilə bəşəri ideyaları tərənnüm etmiş M.Füzulinin fikirlərini nümunə göstərmək çox faydalıdır: «Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb, yazdığımı pozmuşam, ona sahib çıxmamışam. Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb söz almazı ilə məna gövhərini deşmişəm. Bunu görənlər: bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir – deyər-deməz, o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm» (eee).

Bədii əsərin əsas təsvir obyekti insandır, onun müxtəlif əşya və hadisələrə münasibətindən doğan hiss və düşüncələridir. Odur ki, bədii əsərlərin məzmunu dedikdə, hər şeydən əvvəl yazıçının təsvir obyektini xatırlayır, onun nəyi təsvir etdiyini düşünürük. Belə ki, yazıçı öz fikrini ictimai həyatdakı müxtəlif hadisələr, müxtəlif insan xarakterləri, təbiət təsvirləri ətrafında ümumiləşdirir və oxucuya çatdırır. Məzmun dedikdə yazıçının təbliğ etdiyi bədii xüsusiyyətlər nəzərdə tutulur.

Ədəbiyyat fənninin tədrisinin başlıca vəzifəsi şağırdlərdə bədii zövq tərbiyə etmək, onlarda əxlaqi sifətlərin yaradılmasına çalışmaq, onların nitq və təfəkkürlərinin inkişafına, bədii əsər vasitəsi ilə həyatı dərindən öyrənməyə kömək göstərməkdir.

Bu vəzifələrin hamısı bir-biri ilə sıx əlaqədədır və onların yerinə yetirilməsi, hər şeydən qabaq, tədrisin düzgün yollarla aparılmasından, bədii əsərin düzgün təhlil edilməsindən asılıdır. Ədəbiyyat dərslərində mövzu üzərindəki iş aşağıdakı qaydada aparılır:

1) ədibin dövrü və həyatı haqqında məlumat;
2) mətnin oxunması;
3) məzmunun şağırdlər tərəfindən dərk olunması;
4) əsərin təhlili.

Təhlildən qabaq aparılan belə iş növlərində müəllimin bir əsas məqsədi vardır. Məsələn, giriş məşğələsində yazıçının dövrü, həyatı, yaradıcılığının əsas istiqaməti və sinifdə oxunacaq əsərin qısaca yaranma tarixi öyrənilir. Mətnin oxunması məzmunun anlaşılmasına, lüğətlərin izahına, nitqin inkişafına və ifadəli oxu vərdişinin yaranmasına kömək edir. Məzmun üzərində aparılan iş əsərin məzmununun yaxşı dərk olunmasını asanlaşdırır. Ancaq bu iş mərhələlərinin hər birinin bir əsas vəzifəsi olduğuna baxmayaraq, ümumiyyətlə, hamısı birlikdə əsərin dərk edilməsini, ideyasının oxucuya çatmasını asanlaşdırır, yəni təhlil üçün zəmin yaradır.

Mətn üzərindəki işin əsas mərhələsini mətnin təhlilinə sərf olunan xüsusi dərslər təşkil edir. Burada söhbət epik əsərlərin təhlili yollarından gedir. Epik əsərlərin öyrənilməsinə həsr olunan təhlil dərslərində əsasən aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

1) Əsərin, ümumiyyətlə təhlili xüsüsən onun ideya-məzmunu ilə bədii formasının vəhdəti məsələsi;
2) Əsərdəki qəhrəmanların və ya başqa sözlə əsas surətlərin öyrənilməsi və onların səciyyələndirilməsi;
3) Əsərdəki peyzaj, portret və əşya təsvirinin təhlili;
4) Əsərin kompozisiyası üzərində iş;
5) Əsərin bədii dilinin təhlili;
6) Əsas poetik janr xüsusiyyətlərinin öyrənilməsi.

Təhlil dərslərində dərsin təşkili forması da qabaqcadan dəqiqləşdirilməlidir. Bu forma müxtəlif ola bilər: bəzən əsərin təhlilini müəllim tamamilə öz üzərinə götürür, bəzən isə təhlil vaxtı şagirdlər əsər üzərində müstəqil işlədilir. Belə hallarda çox xeyirli olan bu işin təşkili yollarını müəllim qabaqcadan yaxşı düşünməlidir. Şağırdlərin əsər üzərində işləmələri üçün əvvəlcədən mövzu, məruzə və ya suallar verilir. Bu sual və ya tapşırıqların necə verilməsi, sinifdə təhlilin necə aparılması ciddi düşünülməsi lazım gələn cəhətlərdəndir.

Qeyd olunan cəhətlərin hər biri haqqında bəhs etməzdən əvvəl, təhlilin ümumi məsələlərindən danışmaq lazımdır. Əsəri təhlil edərkən qəhrəmanı səciyyələndirmək, əsərin bədii xüsusiyyətlərini açmaq, peyzaj və əşya təsvirini, əsərin quruluşunu və istiqamətini ayrı-ayrılıqda təhlil etmək azdır. Bununla yanaşı onlar arasında əlaqə yaratmaq, hamısını əsərin ümumi təhlilinin xidmətinə vermək lazımdır. Buna görə də, təhlilin bütün elementləri, nəticə etibarı ilə bir xətt üzərində birləşdirilməli və əsərin əsas ideyasının qabarıq verilməsinə kömək etməlidir.

Təhlil vaxtı mümkün qədər şağırdlər əsər üzərində müstəqil işləməyə, onun istiqamətini, bədii xüsusiyyətlərini düzgün dərk etməyə doğru istiqamətləndirilməlidir. Şağırdlər ümumi əzbərlənmiş sözlərdən istifadə etməməli, deyilən fikirləri mexaniki qəbul etməməli, öz fikirlərini əsərdən gətirilən dəlillər əsasında təsdiq etməyi bacarmalıdırlar. Təhlil apararkən standart yol ilə getmək olmaz. Hər bir əsərə xüsusi yanaşmaq və əsas ideya hansı xüsusiyyətlərdə özünü göstərirsə, əsərin təhlilinə də oradan başlamaq lazımdır. Bəzən əsərin kompozisiyası təhlil üçün açar vəzifəsini yerinə yetirə bilər. lakin bədii ifadə vasitələrindən başlamaq daha məqsədəuyğundur. Bir cəhəti də unutmamaq lazımdır ki, epik əsərlərdə həmişə əsas fikir və ideya insan surətlərinin sözü və işi ilə sıx əlaqədə olur. Buna görə də, epik əsərlərin təhlilinə çox zaman məhz insan surətlərindən yəni qəhrəmanlardan başlamaq lazımdır.

Məktəblərin ədəbi qiraət proqramında epik əsərlərin böyük rolu var. Epik əsərdə hadisə və insanlar nəqiletmə yolu ilə təsvir edilir. Belə əsərlərdə yazıçı obyektiv varlığı, həyatı daha geniş təsvir və ifadə etmək imkanına malikdir.

Epik əsərlərin başlıca olaraq təmsil, hekayə, novella, povest, roman və poema kimi növləri vardır. Məktəblərimizdə tədris edilən epik janrın ən geniş yayılmış növü «hekayə» növüdür. Hekayə epik növün çox yayılmış kiçik janrlarından biridir. Bu janrda, adətən, insan həyatının ayrılıqda götürülən

müəyyən bir cəhəti təsvir olunur. Təsvir olunan əhvalatlar çox zaman hekayədə təhkiyə yolu ilə nağıl edilir.

Hekayə novella və oçerk janrları bir-biri ilə yaxın olsalar da, onları eyniləşdirmək olmaz.

Hekayədə hadisə, əhvalat yığcam şəkildə təsvir olunur. Həcmcə kiçik olmasına baxmayaraq, sənətkarlıqla yazılan hekayələrdə tipik xarakterlər, real həyati mənzərələr bütün dolğunluğu ilə əks etdirilir. S.S.Axundovun «Qorxulu nağıllar», C.Məmmədquluzadənin «Poçt qutusu», A.Şaiqin «Məktub yetişmədi» kimi hekayələri bu silsilədən olan əsərlərdir.

Hekayə həm nəsrlə, həm də nəzmlə yazılır. Nəzmlə yazılan hekayələrə mənzum hekayə deyilir. Məsələn, N.Gəncəvinin «Şahın dostluğu», «Fitnə», «Kərpickəsən kişinin dastanı» əsərləri şeirlə yazıldığı üçün mənzum hekayə hesab olunur. «Kərpickəsən kişinin dastanı» hekayəsi N.Gəncəvinin məşhur «Sirlər xəzinəsi» poemasından götürülmüşdür. Nizami Gəncəvi öz poemalarında bu janrdan geniş istifadə etmiş və mənzum hekayə janrının ən güclü nümunələrini yaratmışdır.

Şağırdlər ədəbiyyatın görkəmli nümayəndələrindən olan C.Məmmədquluzadənin «Poçt qutusu», A.Şaiqin «Məktub yetişmədi», S.S.Axundovun «Qaraca qız», M.Cəlalın «Badam ağacları» və s. kimi ideyaca mükəmməl, bədii cəhətdən yüksək nümunələrini öyrənirlər. Hekayə həcmcə yığcam, süjetcə sadə olduğuna görə şağırdlər bu əsərləri az vaxt içərisində bütöv şəkildə oxuya bilirlər. Müəllim bu əsərlərin ideya-bədii xusisiyyətləri haqqında şağırdlərə sinifdə konkret məlumat verməli, onları dərinləşdirmək və tamamlamaq üçün sinifdənxaric tədbirlərdən də istifadə etməlidir. Məsələn, hekayələrin bədii dəyəri üzərində şagirdləri müstəqil işlədərkən aşağıdakı cəhətlərə diqqət yetimək gərəkdir: 1) yazıçı epik janrın bu kiçik formasında az sözlə böyük məna ifadə etməyə, yığcamlığa necə riayət etmişdir; 2) hekayədə, adətən, həyatın yalnız bir epizodu, bir hadisə nağıl edilir, əsasən bir süjet xətti olur, personajların sayı da nisbətən az olur; 3) hekayənin bu xüsusiyyətlərindən yazıçının necə istifadə etməsi; 4) hekayədə təbliğ olunan ideyanı yazıçının bədii yüksəkliyə qaldırması, onun tipik hadisə və xarakterlər yaratması; 5) hekayənin dili, yazıçının üslubu, əsərin kompozisiya və süjeti üzərində xüsusi məşğələnin aparılması.

Hekayələrin bədii dəyəri üzərində şağırdləri işlədərkən, heç şübhəsiz, klassik hekayə ustaları C.Məmmədquluzadə, A.Şaiq və başqa yazıçıların bu sahədəki sənətkarlığını aydınlaşdırmaq faydalı olub, yaxşı nəticə verir. Bu, klassik irsimizi onlara sevdirməklə bərabər, nəcib ənənələrimizi və bu ənənələr üzərində yetişən, onu daha da inkişaf etdirib yeni, yüksək mərhələyə qaldıran Azərbaycan yazıçılarının hekayə janrına gətirdiyi ideya yeniliklərini, sənətkarlıq axtarışlarını aydınlaşdırmaq üçün əhəmiyyətlidir. Azərbaycan novellaçılığının şah əsərlərindən biri olan C.Məmmədquluzadənin «Poçt qutusu» hekayəsini keçərkən hekayədə realizmə, hadisələrin sadə, lakin mənalı bir

üslubda inkişafına, incə yumora, ən başlıcası isə böyük sənətkarın tipik xarakter yaratmaq bacarığına, qəhrəmanın mənəvi həyəcanlarına, düşüncələrinə, danışıq və rəftarına xüsusi fikir vermək lazımdır.

Hekayədə, hər şeydən əvvəl, müəllim şağırdlərin diqqətini «yaxşı hekayə necə olmalıdır?» sualına cəlb etməli və konkret nümunələrlə bunu şağırdlərə başa salmalıdır. Onda bu nümunələr müəllimə dərsin səmərəli təşkilində kömək edər, əsərin ideya və bədii xüsusiyyətləri haqqında şağırdlərə verilən məlumatın elmi cəhətdən dəqiq olmasına imkan yaradar.

M.İbrahimovun «Azad», Mir Cəlalın «Badam ağacları» hekayələrini keçdikdə isə bu yazıçıların əsərlərində olan siyasi kəskinlik barədə konkret bilik verilməlidir. Ə.Məmmədxanlının hekayələri üzərində şağırdləri işlətdikdə isə yazıçının əsərlərindəki realizmlə romantikanın vəhdətindən yaradılması daha çox diqqət mərkəzində olmalıdır.

Məktəblərimizdə çalışan ədəbiyyat müəllimləri uzun illərdən bəri proqramlarda stabil yer tutan və şağırdlər tərəfindən maraqla oxunan klassik hekayə numunələrini tədris etmək işində yaxşı təcrübə qazanmışdırlar. Bu, C.Məmmədquluzadənin «Poçt qutusu», A.Şaiqin «Məktub yetişmədi», S.S.Axundovun «Qaraca qız» və bu kimi başqa əsərlərin tədrisində özünü aydın göstərir.

Müəllimlər şagirdlərin tərbiyyələndirilməsində çox məsuliyyətli və şərəfli rol oynadıqlarını nəzərə alaraq, öz siyasi və nəzəri biliyini, pedaqoji ustalığını daim artırmalıdırlar.

### ƏDƏBİYYAT


1. Azərbaycan nəsr problemi. «Azərbaycan ədəbiyyatı dekadası» kitabı. Bakı: Azərnəşr, 1940, s. 285.
2. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: ADU, 1960, 165 s.
3. Füzuli M. Farsca divanın dibaçəsi. Əsərləri. III c. Bakı: AMEA, 1958, 226 s.
4. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı: BDU, 2009, 185 s.
5. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Azərnəşr, 1953, 301s.
6. Qarabağlı Ə., Quluzadə M., Əfəndiyev S. Ədəbiyyat metodikası. Bakı: Azərnəşr, 1952, 216 s.


## ЖАНР ПОВЕСТИ В ОБУЧЕНИИ ЭПИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ


**А.Т.АЛИЕВА**


### РЕЗЮМЕ


Статья посвящена жанру повести в обучении эпических произведений. Указывается, что в обучении эпических произведений повесть играет важную роль в обучении. Повести преподают в средних школах. Здесь к исследованию привлекаются повести и рассказы Дж.Мамедкулизаде, Мир Джалала, С.Ахундова, А.Шаига.



**Ключевые слова:** повесть, жанр, литература, эпический жанр, Мир Джалал, Джалил Мамедкулизаде, художественное произведение

## THE GENRE OF STORY IN THE STUDY OF EPIC NOVELS

**A.T.ALIYEVA**

**SUMMARY**

The article is devoted to the genre of story in the study of epic novels. It is underlined that the story plays an important role in the study of epic novels.

The article analyses the genre in the example of such prominent authors as J.Mammadguluzadeh, Mir Jalal, S.Akhundov, A.Shaig.

**Key words:** the story, a genre, the literature, an epic genre, Mir Jalal, Jalil Mammadguluzadeh, art